# Ramana qəsəbəsi bu gün tarixi əzəmətini qorumaqla yanaşı, müasirliyi ilə də diqqət çəkir

***Mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən, mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən biridir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



***Bakı ildən-ilə gözəlləşir, tarixi əzəmətini qorumaqla, həm də müasirləşir. Son illər ərzində paytaxtda aparılan möhtəşəm quruculuq işləri nəticəsində bu gün ətraf qəsəbələrdə 50-dən çox yeni, 90-dan çox əsaslı təmir olunan mədəniyyət və istirahət parkı fəaliyyət göstərir. Dövlətimizin başçısının yeni salınan parklarda yaradılan şəraitlə tanış olarkən dediyi "Son illər ərzində Bakıda bir çox parklar, ictimai yerlər, istirahət guşələri yaradılmışdır. İndi Bakı parklar, bağlar şəhəridir" sözləri də şəhərdə tikinti-abadlıq layihələrinin uğurla icra edilməsindən xəbər verir.***

Bütün bunların nəticəsidir ki, qədimliyi və müasirliyi ilə nəzərə çarpan Bakı hazırda dünyada modern şəhər kimi tanınır. Paytaxtımız xarici turistlər üçün cəlbediciliyi ilə diqqət çəkir. Bakının tarixi-memarlıq abidələri ilə zəngin olan hissəsi ilə yanaşı, həm də müasir məkanları da bura gələn əcnəbi qonaqların marağına səbəb olur. Şəhərdə müxtəlif bədii sərgilərin, müasir görməli yerlərin mövcudluğu paytaxtımızın görünüşünə xüsusi rəng qatır.

Bakının inkişafının daim diqqət mərkəzində saxlanıldığını bildirən dövlətimizin başçısı çıxışlarının birində şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət etdiyini, bir çox layihələrin təşəbbüskarı olduğunu vurğulayıb. Ölkə rəhbəri, eyni zamanda, Azərbaycana gələn xarici dövlət başçıları tərəfindən də paytaxtda gedən quruculuq-abadlıq işlərinin yüksək dəyərləndirildiyini, Bakının, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini qeyd edib.

Bütün bunlar isə, şübhəsiz ki, Prezident İlham Əliyevin yeritdiyi sosial siyasətdən, insanlara göstərdiyi diqqət və qayğıdan, bu məsələlərə gündəlik nəzarətindən xəbər verir.

Dövlətimizin başçısının Bakının Ramana qəsəbəsində görülən abadlıq işləri ilə tanış olması da paytaxtın tarixi əzəmətinin qorunması ilə bərabər, müasirləşdirilməsinin, gözəlləşdirilməsinin, bir sözlə, inkişafına qayğı göstərilməsinin daim diqqət mərkəzində saxlanılmasının bariz ifadəsidir.

Ramanada yaradılan şərait, həm də bu qədim yaşayış məskəninin yaxın gələcəkdə respublikamızın turizm mərkəzlərindən biri kimi tanınmasını şərtləndirir. Bu, ilk növbədə, ölkəmizdə turizm sənayesinə mühüm önəm verilməsi ilə bağlıdır. Çünki müstəqil Azərbaycan Respublikasında qeyri-neft sektorunun inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir. Dövlətimiz tərəfindən həyata keçirilən proqramlar və tədbirlər də müvafiq olaraq qeyri-neft sektorunun inkişafına kömək edir. Qeyri-neft sektorunun əsas sahələrindən biri olaraq turizm hökumətimizin hər zaman diqqət mərkəzindədir. Ölkəmizin təbii-coğrafi şəraiti, malik olduğu maddi-mənəvi resurslar, həmçinin tarixən formalaşmış adət-ənənələri bu sahənin inkişafı üçün zəmin yaradır.

***(ardı 3-cü səhifədə)***

# Ramana qəsəbəsi bu gün tarixi əzəmətini qorumaqla yanaşı, müasirliyi ilə də diqqət çəkir

*(əvvəli 1-ci səhifədə)*



Tanışlıq zamanı qəsəbədə görülən işlər barədə dövlətimizin başçısına məlumat verən "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov Ramana qəsəbəsində yenidənqurma işləri yekunlaşdığını, qəsəbədaxili yolların asfaltlandığını, divar və dam örtüklərinin yeniləndiyini, küçələrin işıqlandırıldığını bildirib. Ramananın Həsənbəy Zərdabi, Xanlar, Mirzəağa Əliyev, Əbdürrəhim bəy Haqverdiyev və qəbiristanlıq ətrafı küçələrinin tamamilə yeniləndiyi, həmçinin ərazinin tullantılardan təmizləndiyi də qeyd edilib.

Bildirilib ki, Abşeron ərazisində turizm marşrutlarına daxil edilə biləcək abidələrlə zəngin olan qəsəbənin girişində əzəməti ilə diqqətçəkən XII-XIV əsrlərin yadigarı Ramana qalası yüksək nöqtədə yerləşir. Divarlarının hündürlüyü 15 metr olan qalanın müdafiə məqsədilə tikildiyi və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunduğu vurğulanıb. Məşhur "Koroğlu", "Nəsimi" və "Babək" filmlərinin müəyyən səhnələri də məhz Ramana qalasında çəkilib.

Dövlətimizin başçısına qəsəbədə olarkən digər tarixi abidə – Novruzqulu hamamında aparılan bərpa işləri barədə də məlumat verilib. Qeyd edilib ki, bu qədim hamamda keçmişdə dörd quyu fəaliyyət göstərsə də, hazırda onlardan üçü qalıb. Novruzqulu Babakişi oğlunun adını daşıyan hamam Abşeron yarımadasında yeganə tikilidir ki, onun sənədləri toplanıb və təsdiqlənib. Hamamın binasında keyfiyyətli bərpa işləri görülüb.

Prezident İlham Əliyevə, həm də ovdanları ilə tanınan Ramanada yeni bərpa olunan tarixi abidələrdən biri- el arasında 40 pillə adlanan su ovdanı barədə də məlumat verilərək, deyilib ki, Azərbaycan ərazisində, Abşeron yarımadasında və ona qonşu ərazilərdə ovdanlara daha çox təsadüf edilir.

Bu yerlərdə içməli su mənbələri çox az olduğundan XVI-XVIII əsrlərdə içmək üçün yararlı olan lay sularından istifadə edilməsi məsələsi hazırda aktuallaşıb və ovdanlar yaradılıb. Xatırladaq ki, bu qurğuların tikintisi XX əsrə qədər davam edib.

Burada bir məsələyə də toxunmaq istərdik. Azərbaycanda son 18 il ərzində mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biri olan mədəni irsin qorunması və təbliği diqqət mərkəzində saxlanıb. Ölkəmizin çoxəsrlik tarixə malik maddi-mədəni nümunələrinə həssaslıqla yanaşılıb, onların qorunması, saxlanılması, bərpası ilə bağlı önəmli tədbirlər həyata keçirilib, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafı təmin olunub, habelə hər bir vətəndaşın tarixi irsimizin qorunması üçün məsuliyyəti təşviq edilib.

Ümumiyyətlə, Azərbaycanın rayonlarında, o cümlədən, paytaxt Bakıda tarixi yadigarlara ən yüksək səviyyədə qayğı və diqqət göstərilir. Bu, təsadüfi deyil. Çünki Prezident İlham Əliyev bu məsələni daim diqqət mərkəzində saxlayır, bütün qədim maddi-mədəni dəyərlərə, eləcə də sovet vaxtında tikilən abidələrə xalqımızın milli sərvəti kimi yanaşır: "Bu abidələr bir daha onu göstərir ki, Azərbaycanın çox qədim tarixi, qədim mədəniyyəti var. Çünki ancaq yüksək mədəniyyətə sahib olan insanlar belə tikililər inşa edə bilərdilər. O cümlədən, ovdan, hamam – bu, mədəniyyət deməkdir".

Bakı şəhərinin və Abşeron rayonunun qəsəbələrində həyata keçirilən bu layihələr həm tarixilik, həm də mövcud reallıqlar baxımından xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə, yerli memarlıq məktəbinin üslubları və özünəməxsus rəng çalarları yenidən canlandırılır və gələcək nəsillərə ötürülür. Postmüharibə reallığından baxdıqda isə iqtisadi gücümüzün böyük dərəcədə artdığı, hətta qlobal çağırışlara rəğmən, heç bir sosial layihənin ixtisar olunmadığı aydın görünür.

Ramanada yenidənqurma işləri zamanı ətraf mühitin qorunması, qəsəbənin ekoloji vəziyyəti prioritet məsələlərdən biri olub. Eyni zamanda, əhalinin məşğulluğunun artırılması sahəsində tədbirlərin də həyata keçirilməsi diqqətdə saxlanılıb. Bununla əlaqədar qəsəbədə xalçaçılıq müəssisəsi və satış mağazası açılıb. Yaradılan yeni iaşə və xidmət obyektlərində məhsulların istehsalı və satışının həyata keçirilməsinə başlanılıb. Bu obyektlər müştərilərə yüksək səviyyədə xidmət göstərmək, onların rahatlığını təmin etmək üçün zəruri vasitələr və avadanlıqlarla təchiz olunub.

Dövlətimizin başçısına, həmçinin Pirşağıda hazırlanan quru meyvələrin satışının da Ramanada həyata keçiriləcəyi barədə məlumat verilib. Səyyar satış obyektləri və köşklərin quraşdırılması ilə məşğulluğun artırılmasına nail olmaq, eyni zamanda, yerli əhali və turistlərin ehtiyaclarını qarşılamağın mümkünlüyü də diqqətə çatdırılıb.

Xatırladılıb ki, bu gün Ramanada reallaşdırılan layihələrdən biri də vertikal bağçılıq layihəsidir. Layihənin məqsədi özünəməşğulluğun artırılmasına, aztəminatlı ailələrin daha çox gəlir əldə etməsinə və ailə təsərrüfatlarının inkişafına dəstək olmaq, həmçinin yaşıllıqların genişləndirilməsinə, bitkiçiliyin və kənd təsərrüfatı məhsulları emalının inkişafına töhfə verməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev Ramana qəsəbəsində görülən abadlıq işləri ilə maraqlanarkən, burada ev və həyətlərdə səliqə-sahman yaradıldığının, təmir-bərpa tədbirləri görüldüyünün də şahidi olub. Sakinlərdən biri – Bünyad Qasımov ölkə rəhbərinin tapşırığı ilə evlərin damları, qapıları, divarları, və darvazalarının əsaslı yeniləndiyini, şəhid və veteran ailələrinin evlərinə xüsusi diqqət yetirildiyini bildirib. Bünyad Qasımov, eyni zamanda, həyətində bağçılıqla məşğul olduğunu, qışda göyərti, yayda isə çiyələk yetişdirdiyini qeyd edib.

Dövlətimizin başçısı Ramana sakinlərinin həm sağlam həyat tərzi, həm də asudə vaxtlarını səmərəli keçirmələri üçün inşa olunan İdman Mərkəzi ilə də tanış olub.

Sonda qeyd edək ki, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda reallaşdırılan abadlıq-quruculuq tədbirlərinin miqyası getdikcə artır. Bu işlər paytaxt sakinlərinin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, şəhərin qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir sosial binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Bütün bunlar isə Azərbaycanın dünyanın ən gözəl ölkələrindən birinə çevrilməsini şərtləndirir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***